NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

ISSN 2522-4808 (Print)
ISSN 2702-0034 (Online)

# RİSALƏ

## *Elmi araşdırmalar jurnalı*

# 2-(25)2023



**Bakı – "Elm və təhsil" – 2023**

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**Elmi Şurasının 14 sentyabr 2023-cü il tarixli (protokol №4)**
**qərarı ilə çap olunur**

*Baş redaktor:*
**Rafael Hüseynov,**
***akademik***

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Xatirə Bəşirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Tofiq Məlikli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Rəhilə Qeybullayeva, filologiya üzrə elmlər doktoru, professor, Bakı Slavyan Universiteti, Azərbaycan**
**Mehdi Kazımov, filologiya üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan**
**Paşa Kərimov, filologiya üzrə elmlər doktoru, dosent, AMEA Əlyazmalar İnstitutu, Azərbaycan**
**Ali Yavuz Akpınar, professor, doktor, Boğaziçi Universiteti, Türkiyə**
**Hasan Cavadi, professor, doktor, Kaliforniya Universiteti, ABŞ**
**Firuza Melvil, doktor, Kembric Universiteti, Böyük Britaniya**
**Özgen Felek, professor, doktor, Yel Universiteti, ABŞ**
**Campiyero Bellinceri, doktor, Venesiya Ka Foskari Universiteti, İtaliya**
**Mbaye Lo, professor, doktor, Dyuk Universiteti, ABŞ**
**Hendrik Boeşoten, professor, doktor, Maynz Universiteti, Almaniya**
**Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor,**
**Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası**
**Şodimaxammad Sufiyev, filologiya üzrə elmlər doktoru, professor,**
**Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan**
**Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan**
**Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan**
**Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan**
**Marko Realini, professor, doktor, İtaliya Milli Tədqiqat Şurası, İtaliya**

**Risalə. Elmi araşdırmalar jurnalı. № 2 (25)**
**Bakı, "Elm və təhsil" nəşriyyatı, 2023, 136 s.**

Orta əsrlərdə müsəlman Şərqində yaradılan elmi əsərlər "risalə" adlanırdı. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin klassik ənənəyə riayətlə "Risalə" adlandırılmış, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu ildə iki dəfə (yaz və payız) nəşr edilir. Bu elmi araşdırmalar jurnalı məzmunu etibarilə filologiya (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, folklorşünaslıq, mətnşünaslıq) və sənətşünaslıq (muzeyşünaslıq) sahələri üzrə məqalələri əhatə edir. "Risalə" elmi araşdırmalar jurnalı filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. 2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Mətbu nəşrlərin reyestri"nə daxil edilmişdir (Reyestr № 4216). Eyni zamanda, "Risalə" elmi araşdırmalar jurnalı 05 aprel 2018-ci ildən EBSCO beynəlxalq elektron məlumat bazasına daxil edilmişdir (Müqavilə № 46516).

**© Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2023**

# Oxuyacaqlarınız



# RİSALƏ
# *Elmi araşdırmalar jurnalı*

*№ 2. 2023(25)*

## Mündəricat

**KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ**

*HÜSEYNOV Rafael.*
Nizami Gəncəvinin "Xəmsə"sində türk qatı və türk milli kimliyi düşüncələri
doi.org/10.30546/2702-0034.2023.2.25.7

*QAYIBOV Seyran.*
Yarımçıq hekayə: Əmin Abidin "Həsrət ili" hekayəsinin transliterasiyası və təhlili
doi.org/10.30546/2702-0034.2023.2.25.30

*SADIQOVA Rəhilə.*
Zərif hami, səxavətli fədai: Həmidə Cavanşir-Məmmədquluzadə
doi.org/10.30546/2702-0034.2023.2.25.41

**YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES**

*ƏSƏDULLAYEVA Nuranə.*
Tarixi həqiqət və bədii gerçəklik
doi.org/10.30546/2702-0034.2023.2.25.51

*HEYDƏROVA Sevinc.*
Azərbaycan yazıçılarının qurultayları, ədəbi müzakirələr və tədbirlər
"Ədəbiyyat və incəsənət" qəzetinin səhifələrində
doi.org/10.30546/2702-0034.2023.2.25.57

*XƏLİLOVA Güllü.*
Sabir Rüstəmxanlının 44 günlük Vətən müharibəsinə həsr etdiyi "Qarabağa dönüş" poeması
doi.org/10.30546/2702-0034.2023.2.25.71

*MUSAYEVA İradə.*
İsa Muğannanın roman yaradıcılığında yeni ədəbi estetika və fəlsəfi düşüncə motivləri
doi.org/10.30546/2702-0034.2023.2.25.84

*MUXTAROVA Dinara.*
Художественная литература и публицистический жанр: глобальные
проблемы публицистики XXI века
doi.org/10.30546/2702-0034.2023.2.25.101

**TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN QORUNMASI VƏ TƏDQİQİ. MUZEYŞÜNASLIQ**

*ƏLİYEVA Nailə.*
Nizami muzeyinin UNESCO əhəmiyyətli eksponatı
doi.org/10.30546/2702-0034.2023.2.25.117

*YAQUBƏLİ Rəhimə.*
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində keçirilən yubiley
mərasimləri və yaradıcılıq gecələri
doi.org/10.30546/2702-0034.2023.2.25.122

**Rəhimə YAQUBƏLİ**
ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci
**rhim.rhimova.92@mail.ru**
**ORCID ID: 0009-0005-7760-0359**

# NİZAMİ GƏNCƏVİ ADINA MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİNDƏ KEÇİRİLƏN YUBİLEY MƏRASİMLƏRİ VƏ YARADICILIQ GECƏLƏRİ

**Açar sözlər:** muzey, ədəbiyyat tarixi, yaradıcılıq gecələri, yubiley və anım mərasimləri, audio və video lentlər

**Keywords:** museum, literary history, creative evenings, jubilee and commemorative ceremonies, audio and video tapes

**Ключевые слова:** музей, история литературы, творческие вечера, юбилейные и памятные церемонии, аудио- и видеозаписи

**Giriş.** İnkişaf hər nəsil üçün özünün və özündən öncə sələflərin topladığı həyat və tarixi təcrübəyə əsaslanır. Hər bir dövr sonrakı dövrlər üçün maddi və mənəvi mədəniyyət şəklində bir iz, miras qoyur. Həmin miras isə milli sərvətə çevrilərək cəmiyyətin inkişaf potensialını müəyyən edir. Hər bir cəmiyyət, xalq, toplum üçün bu milli, tarixi və mədəni sərvətlər zəngin olduğu qədər də əhəmiyyətlidir. Buna görə də dövlətlər, xalqlar, toplumlar onları qoruyub nəsildən-nəslə ötürməyə, təbliğ etməyə çalışır. Müasir dövrdə tarixi, mədəni sərvətlər üçün muzeylər, mədəniyyət mərkəzləri, kitabxana və s. qurumlar bu missiyanı yerinə yetirir.

Muzeylər tarixi, mədəni sərvətlərin toplanması, qorunub mühafizə edilməsi və xalqa təbliği məqsədilə funksiyaları yerinə yetirən müəssisələrdir. Azərbaycan Respublikası Prezidentinin "Muzeylər haqqında" 24 mart 2000-ci il tarixli Qanununda bu məsələ xüsusi bir müddəa ilə rəsmiləşdirilmişdir. Qanunun ilk maddəsində muzey anlayışı maddi mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişinin və təbliğinin həyata keçirildiyi mədəniyyət, elmi tədqiqat müəssisəsi kimi göstərilir. Muzey qanunvericiliyinin 8-ci maddəsində isə bütün bu sadalananların və muzey ekspozisiyalarının və sərgilərin təşkili, muzey sahəsində dizayn və tərtibat işlərinin həyata keçirilməsi, muzey əşyalarının konservasiyası və bərpasının bütün növləri, muzey kolleksiyalarının kataloqlarının hazırlanması və nəşr olunması, muzey kolleksiyalarının təbliğinin Azərbaycan Respublikasında muzey fəaliyyətinə aid olduğu qeyd edilir [5]. Ölkəmizdə muzeylərin fəaliyyət strukturunda əsas hissəni ekspozisiya və fond təşkil edir. Ekspozisiya muzey əşyalarının muzey tərəfindən işlənilmiş elmi konsepsiya və müasir bədii-memarlıq həll prinsipinə əsasən təşkil olunmuş və yerləşdirilmiş nümayişidir ki, bunun vasitəsilə tədris və tərbiyə vəzifələrini həyata keçirmək mümkündür [4, s.9]. Muzeyin fond hissəsi isə maddi cəhətdən muzeydə qorunmaq üçün daxil olan bütün materialların ümumi toplusudur. Həmin predmetlər ilk öncə qəbul edilib sənədləşdirilərək təsnifatına əsasən muzeyin tərkibinə daxil olur və uyğun fondda saxlanılır. Bu nümunələrə əşya, təsvir, yazılı, kino-foto-material və səs yazıları daxildir ki, onlar tarixi həqiqətləri, faktları, hadisə və prosesləri inikas etmək



CC BY NC ND

qabiliyyətinə malikdir. Bu materiallar öz rəngarəngliyi ilə, funksional təyinatı, forma və s. ilə tarixi həqiqətlər haqqında informasiyaları daşıyır [1, s.40].

Muzey fəaliyyətində yalnız fond və ekspozisiyanın qurulması ilə kifayətlənmək dövrümüzdə bəsitlik olardı. Ona görə muzeylər mühafizə etdiyi bu informasiyalardan istifadə edərək tədris, tədqiqat və təbliğat işlərini həyata keçirir. Müxtəlif mövzulu sərgilər, yaradıcılıq gecələri, yubiley və anım mərasimləri, konfranslar, lektoriyalar, elm və mədəniyyət xadimləri, tarixi şəxsiyyətlərlə görüşlər, seminarlar, mühazirələr, mədəniyyət gecələri və başqa tədbirlərin təşkili onların fəaliyyətini daha çox genişləndirir, gənc nəslin, yerli və əcnəbi tamaşaçıların marağını, diqqətini daha da dərinləşdirir.

**Azərbaycanda muzey işi və Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.** Azərbaycan xalqının tarixi, mədəniyyəti və məişəti ilə bağlı dövlət və cəmiyyətin həyatından ən mühüm hadisələr, elm və texnikanın, incəsənət və ədəbiyyatın keçdiyi inkişaf yolu ilə, ictimai-siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin, hərbiçilərin və tarixi hadisələrin fəal iştirakçılarının həyatını əks etdirən ayrı-ayrı əşyalar və kolleksiyalar ölkə muzeylərində cəmləşmişdir. Bu dəyərli nümunələr həm gənc nəslə, həm də muzeylərimizi ziyarət edən qonaqlara dərin tarixi köklərə, mədəniyyətə malik olduğumuzdan bəhs edir. Ümummilli Lider Heydər Əliyev muzey işi haqqında bu fikirləri demişdir: "Muzeylər mühüm mədəniyyət ocaqlarına, zəhmətkeşlərin, xüsusilə cavan nəslin ideya-siyasi və mənəvi tərbiyəsinin mərkəzlərinə çevrilmişdir" [1, s.18]. Bu gün Heydər Əliyevin layiqli davamçısı, respublika Prezidenti İlham Əliyev Ümummilli Liderimiz Heydər Əliyevin elm, təhsil, mədəniyyət və incəsənət sahəsindəki kursunu davam etdirərək muzeylərimizə diqqət və qayğı göstərir. Hər bir sahədə olduğu kimi, muzeylərdə də təmir və bərpa işləri aparılır, müasir dünya standartlarına uyğun texnoloji avadanlıqlarla təmin edilir. Müxtəlif ölkələrin muzey və mədəniyyət qurumları ilə dostluq, əməkdaşlıq işləri görülür, mədəni sərvətlərimizin beynəlxalq aləmdə tanıdılması istiqamətində layihələr həyata keçirilir.

Bunun nəticəsi olaraq vətənimizdə fondlarında minlərlə dəyərli material toplanıb mühafizə edilən 200-dən artıq müxtəlif profilli muzeylər fəaliyyət göstərir [6]. Azərbaycan xalqının maddi və mənəvi irsinin, xəzinəsinin əsas potensialını təşkil edən bu kolleksiyaların mühafizəsi dövlətimizin mədəniyyət siyasətinin əsas iqtiqamətlərindən birini təşkil edir və bu sahədə bəşəri tələblər əsasında hüquqi-normativ baza hazırlanmışdır. Həmin hüquqi-normativlər əsasında muzey əhəmiyyətli sərvətlərin mühafizəsinin prioritetləri müəyyən edilmişdir.

Ölkəmizin aparıcı muzeylərindən olan Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Azərbaycan ədəbiyyatına və mədəniyyətinə aid materialların toplanması, tədqiqi, mühafizəsi və nümayiş etdirilməsi ilə məşğul olur. 1860-cı ildə memar Qasım bəy Hacıbababəyovun layihəsi əsasında paytaxt Bakının mərkəzində ucaldılmış bina müxtəlif məqsədlərlə istifadə olunmuşdur. Dahi şair Nizami Gəncəvinin anadan olmasının 800 illiyinə həsr olunmuş daimi sərgi-xatirə muzeyinin təşkili haqqında sərəncama əsasən ötən əsrin 40-cı illərində ən seçmə sənətkarlar milli söz ocağının yaradılmasına cəlb edildi [7]. 1845-ci ilin may ayında qapılarını üzümüzə açan muzeydə memarlar Sadıq Dadaşov və Mikayıl Useynovun layihəsi çərçivəsində əsaslı təmir işləri aparılmış, interyeri Lətif Kərimov tərəfindən bəzədilmiş, fasadında Azərbaycanın görkəmli şair və yazıçılarının heykəlləri quraşdırılmışdır. Müxtəlif sənədlər, əlyazmalar, kitablar, qədim və orta əsrlər

dövrünə aid maddi mədəniyyət nümunələri, rəsm və heykəltəraşlıq əsərləri nümayiş etdirilən otuz ekspozisiya zalından, dörd filialdan ibarət muzeydə Azərbaycan ədəbiyyatının ən qədim dövrlərdən müasir dövrə qədər keçmiş olduğu tarixi yol göstərilir [8]. Muzey Azərbaycan ədəbiyyatı tarixinin əsrarəngiz nümunələrini qoruyan tam kompüterləşdirilmiş, innovativ vasitələrlə zənginləşdirilmiş fondlara, ictimaiyyətə təqdim olunan Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri əks olunmuş ekspozisiya zallarına malik olmaqla yanaşı, ədəbi mərasimlər, yubiley və yaradıcılıq gecələri, konfranslar, lektoriyalar kimi elmi və mədəni görüşlərə də ev sahibliyi etmişdir. Bu tədbirlər həm gənc nəslə ədəbi irsin dərinliklərinin öyrədilməsində, həm də gələcək elmi tədqiqatlar üçün canlı, vizual elmi qaynaq, istinad əhəmiyyəti daşıyır. Muzeydə keçirilən yubiley mərasimləri və yaradıcılıq gecələrində görkəmli tarixi şəxsiyyətlər, gənc ədiblərin iştirak etməsi və çıxışlarında tədbir səbəbkarı olan ədib haqqında xatirələr, əsərindən hissələr səsləndirilməsi informasiyanı daha da dəqiqləşdirir və öyrənilməsini asanlaşdırır [7].

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində keçirilən yubiley mərasimləri və yaradıcılıq gecələri.** 24 oktyabr 2003-cü il tarixində Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində dahi Azərbaycan şairi Hüseyn Cavidin anadan olmasının 121 illiyi münasibətilə elmi sessiya keçirilmişdir. Qanlı repressiyalar dövründə adı dərsliklərdə, ədəbiyyat tarixlərində qeyd edilməyən, haqqında heç yerdə məlumat verilməyən, yalnız həmin dövr nəsillərin hafizəsində şeirləri, əsərlərindən parçalar əzbər qalan yazıçının yubiley mərasiminin həyata keçirilməsi milli özünüdərkin, özünəqayıdışın bir hissəsi idi. Muzey direktoru Rafael Hüseynov çıxışında qeyd etdi ki, "Cavidin yuvarlaq ildönümlərinin bayram edilməsi bütün həyatı boyu olmamışdır. Zavallı öz ömrü içərisində hansısa ad gününün, hansısa yuvarlaq ildönümünün bayram edilməsini görməyib" [2, s.223]. Bu gün isə o illərin əvəzinə bütün Azərbaycan şair və yazıçıları ilə bağlı tədbirlər, elmi sessiyalar, ədəbi görüşlər muzey tərəfindən keçirilərək tarixi yaddaşın daşıyıcısı rolunu oynayır. Bu tədbirdə Rafael Hüseynov çıxışında Ulu Öndər Heydər Əliyevin Cavidin nəşinin Bakıya gətirilməsində əvəzsiz xidmətlərindən, onun Moskvaya getməsi ilə əlaqədar Cavidlə bağlı tədbirlərin yerinə yetirilməsinin dayandırılması haqqında geniş informasiya vermişdir. Tədbirdə Cavidin nəşinin qaytarılması və həyatı haqqında "Qayıdış" filminin çəkilməsi ilə bağlı dəfələrlə Sibirə getmiş Həmid Cəfərov və Zakir Nəsirovun iştirakı da ayrıca bir tarixi hadisədir. Canlı şahidlərin Cavid əfəndi, Mişkinaz xanım və Turan xanımla bağlı xatirələri qeyd etməsi şairlə bağlı dəyərli faktlardır [2, s.225].

Digər bir nümunə olaraq 2004-cü ilin 1 iyun tarixinda İsi Məlikzadənin 70 illik yubileyinə həsr olunmuş xatirə gecəsini qeyd edə bilərik. Həmin xatirə gecəsində az ömür yaşayan, lakin özündən sonra mənəvi-əxlaqi keyfiyyətlər aşılayan zəngin ədəbi irs miras qoyan yazıçının yeni nəsrin yaradılmasında rolu haqqında geniş elmi məlumat əldə edə bildik. Yazıçının "Şehli çəmənin işığı", "Dədə palıd", "Özgə anası", "İki günün qonağı", "Günəşli payız", "Gümüşgöl əfsanəsi", "Yaşıl gecə" əsərləri qonaqlara çatdırıldı. Şair Fikrət Sadıq, Sabir Rüstəmxanlı, aktyor və kinorejissor Ramiz Əzizbəyli və Əlibala Hacızadə, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Ayaz Vəfalı İsi Məlikzadə ilə bağlı xatirələrini bölüşdülər. Tədbir iştirakçıları ədibin söz dalğasına daldı [3, s.49]. Tədbirdə muzey tərəfindən İsi Məlikzadənin yubileyinə həsr olunmuş kitabın tamaşaçılara təqdimatı da edilmişdir. Həmin kitabda ədibin ömrünün müxtəlif illərinin, həyatının müxtəlif parçalarından fotolar,

qələmindən çıxmış əsərlərlə bağlı səhnələşdirmələr, fraqmentlər cəmlənmişdir ki, vərəqlədikcə yazıçını və onun mühitini görmək mümkündür. Yazıçı Əlibala Hacızadə isə onunla bağlı xatirələrini belə qeyd etdi: "Biz üç dost idik. Onlardan biri Fərman Kərimzadə, digəri İsi Məlikzadə və üçüncüsü mən idim. Ötən illər ərzində bu iki nəfərin xüsusi yeri var. Hələ İsi Məlikzadə ədəbiyyat aləminə gəlməmişdi, lakin hiss olunurdu ki, ürəyi doludur və nəsə demək, yazmaq istəyir" [3, s.50]. Sonra isə yazıçı redaksiyaya hekayəsini gətirmiş, utancaq və təvazökarcasına təqdim etmişdir. Hekayə bəyənilmiş və növbəti nömrədə çap olunmuşdur. Yazıçı xatirələrini paylaşarkən görürük ki, İsi Məlikzadə gözəl ədib olmaqla yanaşı, xaraktercə də mədəni, nəcib və həyat eşqi ilə dolu bir insan olmuşdur. Allahın şah əsəri olan insan gedir, ancaq insanın yaratdığı şah əsərlər yaşayır. İsi Məlikzadənin də əsərləri bu qəbildəndir. O, az ömründə əbədiyyət ömrü qazanmışdır. Muzeyin təşkil etdiyi yubiley mərasimində İsi Məlikzadə yenidən xəyallarda canlandırıldı, kitablarda olmayan ömrü, əsl gerçək obrazı bura yığışan insanlara çatdırıldı. Hər kəs təvazökar və yaradıcılığı çox da qabardılmamış yazarı daha dərindən tanıdı və bundan sonra da onun əsərlərinə oxucu marağı genişlənəcəkdir. Rejissor Ramiz Əzizbəyli isə yazıçının kinostudiyadakı fəaliyyətindən, üzərində işlədiyi ssenarilər və "Qaçaq Nəbi" filmində çəkildiyi epizodik obrazla bağlı xatirələrini, fikirlərini qeyd etdi. Yığıncaqda Fikrət Sadığın İsi Məlikzadənin xatirəsinə həsr etdiyi şeiri səsləndirməsi duyğuları coşdurdu. Sonda isə muzeyin direktoru Rafael Hüseynov Hacıbaba Hüseynovun ifa etdiyi İsi Məlikzadənin bayatılarından bir parçanı səsləndirdi. Muzey Azərbaycan şair və yazıçılarının xatirəsini yaşatmaq və yaradıcılığını tanıtmaq məqsədilə bu tip tədbirlərə öz fəaliyyətində geniş yer verir. Təbii ki, İsi Məlikzadənin yubileyləri, xatirə gecələri yenə də həyata keçiriləcək və onun ruhu yenidən canlandırılacaq. Gənc nəsil yazıçının əsərləri ilə bağlı informasiyalar əldə edəcək və biliklərini dərinləşdirərək möhkəmləndirəcəkdir.

Həmin ilin noyabrında digər bir böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 635 illiyi ilə bağlı keçirilən elmi sessiya və görüş də təqdirəlayiq tədbirlərdəndir. Şamaxıda dünyaya gəlib 1417-ci ildə uzaq Hələb şəhərində həyatının son nöqtəsi qoyulmuş laməkan şairin yaradıcılığı yad edildi [3, s.5]. Tədbirdə Nəsiminin xatirəsinə, irsinə və həyatına həsr edilmiş ekspozisiya zalının da açılışı oldu. Bu zalda Nəsimi yaradıcılığına aid predmetlər, portretlər, ona həsr edilmiş nümunələr daimi olaraq sərgilənir. Azərbaycanın mədəniyyət və incəsənət xadimləri tərəfindən Nəsiminin anılması, hər birinin yanaşması, şeirlərindən parçalar ifa edilməsi, fikir mübadiləsi nəticəsində həm tədbir qonaqları, həm də gələcəkdə bu tədbirin video və səs lentlərini izləyənləri xəyalən o dövrlərə səyahət etdirəcəkdir. Bilirik ki, Nəsiminin nə fotosu vardı, nə də yetərincə məlumat. Eyni zamanda, müxtəlif dövrlərdə fərqli münasibətlərdən dolayı da şairin həyat və yaradıcılığı tam qoruna bilməmiş və dövrümüzə müəyyən məlumatlar gəlib çatmışdır. Lakin incəsənət xadimləri onun filmi, portretini hazırlamaq üçün haqqında dərindən araşdırmalar aparmışlar. Bu tədqiqatlar zamanı aparılan müzakirələr, ərsəyə gətirilən yaradıcılıq işləri haqqında da tədbirdə məlumat vermişdilər. Şair haqqında İsa Hüseynovun ssenarisi əsasında çəkilən filmdə Nəsimi obrazını ifa edən Rasim Balayev də filmin çəkilişi və geniş kütləyə təsiri ilə bağlı fikirlər səsləndirdi və şairin şeirindən beytlər söylədi [3, s.6]:

Dilbəra, mən səndən ayru ömrü, canı neylərəm?
Tacü təxtü mülkü malü xanimanı neylərəm?
İstərəm vəsli-cəmalı ta qılam dərdə dəva,
Mən sənin bimarınam, özgə dəvanı neylərəm?

Rasim Balayev qeyd etdi ki, film üçün Nəsimi obrazı üzərində işləyərkən rəssam Mikayıl Abdullayevin yaratdığı portretlə detallar onların əlaqələri olmadıqları halda çox oxşayırdı. Bunun müsbət cəhəti isə filmdəki obrazla rəsmdəki nəsnənin eyniləşməsidir. Nəticədə hamının qəbul etdiyi bir Nəsimi meydana çıxdı. Sonralar Nəsimi haqqında əsərlər, elmi işlər genişləndi və 1974-1978-ci illərdə çoxlu oğlan uşaqlarına Nəsimi adı qoyulurdu. Camaat Nəsimini sevdi, onu xatırladı, yaradıcılığı ilə maraqlandı. Nəsimi haqqında məlumat verilərkən tədbirdə onun kiçik qardaşı Şahxəndanın da şair olması, təzkirələrdə, qaynaqlarda şeirlərinin qalması, Nəsiminin 8000 beytdən ibarət “Divan”ı və vəsiyyətnaməsinin dövrümüzə bütöv çatmaması da qeyd edildi [3, s.7-8]. Nizami muzeyində baş tutan bu yığıncaq müasir dövrümüzdə Nəsimiyə həsr olunmuş tədbirlərin keçirilməsini aktuallaşdırdı. Nəsiminin təfək-kürünə, düşüncəsinə olan müxtəlif zamanların səhv yanaşmaları bu tədbirlər vasitəsilə daha da aydınlaşıb dəqiqləşəcəkdir. Onun həyatı və yaradıcılığı öyrənil-dikcə yeni-yeni yaradıcılıq nümunələri ərsəyə gələcəkdir. Çünki Nəsimi təfəkkürünün məhsulları bütün dövrlərdə aktual mövzu olacaq. Qaynaqlara əsasən, özünün də qeyd etdiyi kimi, Nəsimi əbədiyyət üfüqlərində doğan günəş kimi daim işıq saçacaq, yaşayacaqdır.

Nizami muzeyi 2004-cü ilin payızında digər bir mötəbər yubileyə, söz ustası, təbiətin bütün gözəlliklərini, fəlsəfəsini öz şeirlərində əks etdirmiş Hüseyn Arifin 80 illiyinə həsr olunmuş xatirə axşamına da ev sahibliyi etmişdir. Tədbirin açılış çıxışını edən Rafael Hüseynov, daha sonra isə Camal Mustafayev, şair Sabir Rüstəmxanlı, Hüseyn Arifin uşaqlıq dostu Abbas Abdulla, övladları öz xatirələrini və onun şeirlərindən nümunələr səsləndirmiş, Əli Nur və Barat Vüsal isə sənətkara həsr etdikləri şeiri ifa etmişlər. Muzeyin direktoru Rafael Hüseynov öz xatirələrindən, Səməd Vurğun və Hüseyn Arif dostluğu, ədəbi münasibətləri barədə müfəssəl informasiya təqdim edərək, onun incə, zərif ruhlu, ana dilinin sadəliyinə, duruluğuna, saflığına yaraşan şeirlərinin dərinliklərindən, ədəbiyyatın, dilçiliyin və folklorun inkişafında şairin sənət nümunələrinin rolundan danışmış və şeirlərini səsləndirmişdir [3, s.102].

Gəl çıxaq seyrinə uca dağların,
Çəmən olan yerdə xalça nə lazım?
Gəl içək suyundan buz bulaqların,
Lilpar olan yerdə dolça nə lazım?

Düzdür, böyük şairin çoxlu təntənəli yubileyləri keçirilmişdir, lakin muzeydəki yubiley gecəsində Hüseyn Arif sanki getdiyi əbədiyyət yolundan ayrılıb auditoriyada canlandı, xatirələri, yaradıcılığı yenidən yaşandı. Muzey bu görüşlə bir az daha məbədləşdi.

Ədəbi irsimizin tarixi yaddaşı rolunu daşıyan muzey yalnız Azərbaycan ədəbiyyat və incəsənət xadimlərinin deyil, muzeyin formalaşmasında, dəyərli tarixi nümunələrin toplanmasında səy göstərmiş əməkdaşlarından olan Azərbaycanın ilk monumentalist heykəltəraş qadını Münəvvər Rzayeva, həmçinin əcnəbi şair və yazarların da xatirə və anım mərasimləri, yubiley gecələrini təşkil etmişdir. Bunlara dünya ədəbiyyatının korifeylərindən olan Əmir Dəhləvinin 750 illik yubiley konfransı, avstriyalı ədib Ceyms Oldricin 80 illiyinə həsr olunmuş elmi sessiyanı

nümunə göstərə bilərik. Əcnəbi ədiblərə həsr olunmuş həmin tədbirlərdə iştirak edənlərin çox hissəsini Bakı məktəblərinin müəllimlərinin təşkil etməsi xüsusilə təqdirəlayiqdir. Çünki müəllimlər və məktəb şagirdləri həmin şəxslərlə tanış olur və məlumatlar əldə edirlər. Beləliklə də hələ erkən yaşlardan gənclərdə ədəbi tərbiyənin formalaşdırılmasına başlanılır. Bu elmi sessiyalar informasiya bazasının genişlənməsinə, növbəti elmi, ədəbi və bədii mərasimlərə, tədqiqatlara zəmin yaradır. Dünya ədiblərinə həsr olunmuş tədbirlər ədiblər, xalqlar və mədəniyyətlər arasında yaradılmış körpünü daha da möhkəmləndirir, dərinləşdirir və yeni rəngarəng elmi və mədəni nümunələrin yaradılmasına zəmin yaradır. Bu tədbirlərdə müxtəlif dildə danışan, yazıb-pozan insanlar toplaşaraq ədəbi ünsiyyət yaradır, bir-birinin ədəbi mədəniyyəti ilə tanış olur və yeni informasiyalar qazanırlar [3, s.149].

**Nəticə.** Bu tədbirlərin hər biri tarixi ədəbi irsin yaşadılmasına, təkrar yada salınmasına və gənc nəslin marağını cəlb etməyə xidmət edir. Yubiley və anım mərasimlərində, yaradıcılıq gecələrində iştirak edən məktəblilər, tələbələr və digər gənclər tarixi şəxsiyyətlərlə və onların yaxınları ilə ünsiyyətdə olur, onların dövrü, həyatı və yaradıcılığı ilə bağlı informasiyanı canlı şahidləri dinləyərək əldə edir, ədəbi nümunələrin ərsəyə gəldiyi yolu dəqiqliklə daha realist öyrənir. Yaxşı hal olardı ki, məktəblər və universitetlər muzeylərlə əlaqəni gücləndirərək belə tədbirlərdə gənclərin tamaşaçı, iştirakçı qismində olmasına daha çox önəm versin. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Elmi-kütləvi işlər şöbəsi vardır ki, bəzi təhsil müəssisələri ilə əməkdaşlıq edərək, pedaqoji istiqamətdə də işlər görür, lakin ölkənin bütün təhsil müəssisələri üçün bu, labüddür. Çünki bu muzey yalnız qısamüddətli ekskursiya, tur etməkdən ibarət deyil. Burada mühafizə edilən və sərgilənən eksponatlarda Azərbaycanın tarixi və ədəbiyyatı əks olunur. Ədiblərlə bağlı həyata keçirilən tədbirlər rəngarəngliyi, marağı da artıracaq. Əcnəbi şair və yazıçılarla bağlı ədəbi mərasimlər isə təkcə gənclərə, onların ictimaiyyətə tanıdılmasına xidmət etmir, eyni zamanda ədəbi və mədəni dostluqlar, əməkdaşlıqların yaradılmasına, yeni yaradıcılıq və elmi-tədqiqat işləri üçün şərait yaradır.

Muzeyin fəaliyyətində müsbət cəhətlərdən biri də odur ki, həmin yubiley, anım və xatirə mərasimləri, yaradıcılıq gecələri ilə bağlı ev sahibliyi etdiyi bütün tədbirlər audio və video lentlərə yazılaraq fonoteka şöbəsində saxlanılır. Həmin fonomateriallar geniş informasiya bazasına çevrilərək elmi araşdırmalar, müəllif hüquqlarının qorunması və digər məsələlər zamanı elmi qaynaq və maddi sübut kimi istifadə edilə bilər. Bu nümunələr zəngin məlumatlarla dolu elmi məlumat aparatı rolunu daşıyır.

Əlaqə
E-mail: **rhim.rhimova.92@mail.ru**

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Allahverdiyeva, A. "Muzey fondları". Dərslik, Bakı, 2010, 208 s.
2. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyi. "Məclis" (Ədəbi mərasimlər, ildönümlər, görüşlər toplusu). I kitab. Bakı: "Nurlan", 2006, 300 s.
3. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyi. "Məclis" (Ədəbi mərasimlər, ildönümlər, görüşlər toplusu). III kitab. Bakı: "Nurlan", 2008, 184 sə
4. Eyvazova, Y. "Muzey ekspozisiyası". Dərslik, Bakı, 2009, 228 s.
5. "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 24 mart 2000-ci il. № 839-IQ
6. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_muzeyl%C9%99rinin_siyah%C4%B1s%C4%B1

7. http://www.nizamimuseum.az/
8. https://az.wikipedia.org/wiki/Nizami_G%C9%99nc%C9%99vi_ad%C4%B1na_Milli_Az%C9%99rbaycan_%C6%8Fd%C9%99biyyat%C4%B1_Muzeyi

**Məqaləyə istinad:** Rəhimə Yaqubəli. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində keçirilən yubiley mərasimləri və yaradıcılıq gecələri Risalə. Elmi araşdırmalar jurnalı. Nömrə 2 (25), 2023. səh.122-129.
DOİ: 10.30546/2702-0034.2023.2.25.122

***Rahima YAGUBALI***

## ANNIVERSARIES, CEREMONIES AND CREATIVE EVENINGS HELD AT NATIONAL MUSEUM OF AZERBAIJAN LITERATURE NAMED AFTER NIZAMI GANJAVI

***Summary***

Our homeland is rich in interesting museums that bear witness to the past and are eye-catching with their uniqueness. Among them, the National Museum of Azerbaijan Literature named after Nizami Ganjavi, the only temple of words in the world, is one of the particularly highlighted museums. As an indicator of the historical development path of Azerbaijani literature, the National Museum of Azerbaijani Literature named after Nizami Ganjavi is of great importance. Valuable exhibits related to the life and creativity of our poets and writers from the earliest times to the modern era have been collected here. Among the museum's rare and valuable exhibits are a handful of soil taken from Nasimi's tomb, Fuzuli's handwriting, Khurshidbanu Natavan's hand-made delicate embroideries, pieces left over from the chessboard given to him by Alexander Duma, wall clock in the editorial office of "Molla Nasreddin" magazine, objects that keep alive the memories of many prominent literary figures like Firudin Bey Kocherli, Salman Mumtaz, Abdurrahim Bey Hagverdiyev, Jafar Jabbarli, Huseyn Javid, Mikayil Mushvig, Igar Rafibeyli, Anver Mammadkhanli, Mir Jalal, Khalil Rza, Mammad Araz, Bakhtiyar Vahabzade and many others.

In addition to the preservation and display of samples reflecting Azerbaijan's literary heritage, literary ceremonies are also carried out in the National Museum of Literature named after Nizami Ganjavi. Various conferences, scientific sessions, literary meetings, memorial and jubilee ceremonies deepen and strengthen knowledge.

Among them, jubilee ceremonies and creative nights dedicated to poets and writers are especially important. In those events, information about their life and creativity is provided by witnesses. One of the outstanding aspects of the museum's activity is the recording of these events on audio and video tapes. Speeches of people participating in literary ceremonies are of great importance in conducting scientific research works and clarifying information.

The article provides information about the conferences, scientific sessions, and commemorative evenings dedicated to the anniversaries of local and foreign writers held in the museum and the importance of their audio and video recordings.

***Рагима ЯГУБАЛИ***

**ЮБИЛЕЙНЫЕ ЦЕРЕМОНИИ И ТВОРЧЕСКИЕ ВЕЧЕРА ПРОВЕДЕННЫЕ В НАЦИОНАЛЬНОМ МУЗЕЕ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЫ ИМЕНИ НИЗАМИ ГЯНДЖЕВИ**

***Р е з ю м е***

Наша родина богата интересными музеями, свидетельствующими о прошлом и поражающими своей уникальностью. Среди них Национальный музей азербайджанской литературы имени Низами Гянджеви – единственный храм слова в мире, является одним из особо отличающихся музеев. Как показатель исторического пути развития азербайджанской литературы большое значение имеет Национальный музей азербайджанской литературы имени Низами Гянджеви. Здесь собраны ценные экспонаты, связанные с жизнью и творчеством наших поэтов и писателей с древнейших времен до современности. Среди уникальных и ценных экспонатов музея – горсть земли, взятой из могилы Насими, почерк Физули, ручные тонкие вышивки Хуршидбану Натаван, фигуры, оставшиеся от шахматной доски, подаренной ей Александром Дюмой, настенные часы в редакции журнала «Молла Насреддин», предметы, которые сохраняют память о многих выдающихся литературных деятелях, таких как Фирудин бей Кочерли, Салман Мумтаз, Абдуррагим бек Хагвердиев, Джафар Джаббарлы, Гусейн Джавид, Микаил Мушвиг, Нигяр Рафибейли, Энвер Мамедханлы, Мир Джалал, Халил Рза, Мамед Араз, Бахтияр Вагабзаде и многие другие.

Помимо сохранения и экспонирования образцов, отражающих литературное наследие Азербайджана, в Национальном музее азербайджанской литературы имени Низами Гянджеви проводятся также литературные церемонии, различные конференции, научные сессии, литературные встречи, мемориальные и юбилейные церемонии, которые служат углублению и укреплению знаний.

Среди них особое значение имеют юбилейные церемонии и творческие вечера, посвященные поэтам и писателям. В таких случаях информацию об их жизни и творчестве дают живые свидетели. Одним из ярких аспектов деятельности музея является запись этих событий на аудио- и видеопленки. Большое значение в проведении научно-исследовательских работ и уточнении информации имеют выступления лиц, участвующих в литературных церемониях.

В статье представлена информация о проводимых в музее конференциях, научных заседаниях, памятных вечерах, посвященных юбилеям отечественных и зарубежных писателей, а также значении их аудио- и видеозаписей.